Ədəbiyyat qəzeti

5 dekabr / 2020

**Kamal Abdullanın Azərbaycan elmində, mədəniyyətində, ictimai fikrində təxminən yarım əsrlik bir dövrdə göstərdiyi xidmətlərin miqyasını təsəvvürdə canlandırdıqca ən mütəvaze mövqedən belə heyrətlənməmək mümkün deyil. Kamal Abdulla, heç şübhəsiz, böyük mütəfəkkirdir... Lakin xüsusi olaraq qeyd etmək lazımdır ki, bu, metatəfəkkürün mütəfəkkirliyidir. Dədə Qorqud eposu da daxil olmaqla, Azərbaycan-türk mədəniyyətinin mətnlərini heç kim onun qədər dərin təhlillərlə, analitik konseptuallıqla ümumbəşəri mədəniyyətin metadilinə çevirə bilməzdi. Və metatəfəkkürün ifadəsi olan həmin metadil Kamal Abdullanın bütün diskurslarına yeriyir.**

*Nizami CƏFƏROV*